# GÜRCÜSTAN

SAYI 35-36 (13.405)
CÜMƏ 9 MAY 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## İRAKLİ KOBAXİDZE "GÜRCÜ ARZUSU"NUN SƏDRİ SEÇİLİB



***Baş nazir İrakli Kobaxidze "Gürcü Arzusu" partiyasına rəhbərlik edəcək.***

Hakim partiyanın Tbilisidəki "Paraqraf" otelində baş tutan qurultayında İrakli Kobaxidze yekdilliklə partiyanın sədri seçilib.

O, bu vəzifəyə ikinci dəfə seçilib.

Hakim partiyanın fəxri sədri Bidzina İvanişvilinin də iştirak etdiyi "Gürcü Arzusu"nun 9-cu qurultayı sədrin seçilməsi ilə başlayıb və tədbir cəmi 18 dəqiqə davam edib. Qurultaya dəstək məqsədilə partiyanın Siyasi Şurasının yenilənmiş tərkibi də təqdim edilib.

Qeyd edək ki, "Gürcü Arzusu"nun keçmiş sədri İrakli Qaribaşvili partiyadan və ümumilikdə siyasətdən ayrılmaq qərarı verib. O, bu barədə bəyanatı 25 aprel tarixində səsləndirib.

"Gürcü Arzusu"nun Siyasi Şurasının tərkibi də müəyyənləşib. 13 üzv səsvermə yolu ilə yekdilliklə təsdiqlənib: Kaxa Kaladze, Şalva Papuaşvili, Mamuka Mdinaradze, Qia Volski, Tea Tsulukiani, Vaxtanq Qomelauri, İrakli Çikovani, Maka Boçorişvili, Nikoloz Samxaradze, Mariam Kvrivişvili, Dimitri Samxaradze, Sulxan Tamazaşvili və Nino Tsilosani.

Siyasi Şura üzvlərinin təsdiqlənməsindən sonra partiyanın yeni sədri İrakli Kobaxidze qurultayı bağlı elan edib.

## VAĞZAL BAZARINDA YANĞINDAN ZƏRƏRÇƏKƏNLƏRƏ MERİYA TƏRƏFİNDƏN YARDIM OLUNACAQ

***Tbilisi meri Kaxa Kaladzenin sözlərinə görə, ötən həftə vağzal meydanı yaxınlığındakı bazarlardan birində baş vermiş yanğından sonra ərazidə söküntü işlərinə başlanılıb.***

K. Kaladze Tbilisi hökumətinin iclasında bildirib ki, hadisə nəticəsində 400-ə yaxın satıcıya ziyan dəyib, məhsullar və infrastruktur tamamilə sıradan çıxıb. Meriya hadisədən dərhal sonra zərərçəkmiş satıcılarla əlaqə saxlayıb və onlara dəstək göstərmək məqsədilə bir sıra görüşlər keçirib. Satıcıların əsas tələbi yanğından zərər görmüş ərazinin təmizlənməsi və zədələnmiş konstruksiyaların sökülməsi olub. Bununla əlaqədar meriya ehtiyat fonddan vəsait ayıraraq, podratçı şirkətlə müqavilə bağlayıb və şənbə günü ərazidə söküntü işlərinə başlanılıb.

Kaladze əlavə edib ki, meriya zərərçəkmişlər üçün maliyyə yardımı paketi hazırlayır:

*"Bu yardım onlara dəymiş ziyanı tam qarşılamasa da, fəaliyyətlərini qismən bərpa etməyə kömək edəcək. Yardım paketi ilə bağlı qərarlar yaxın günlərdə ictimaiyyətə açıqlanacaq"*, – deyə o qeyd edib.



Eyni zamanda, Tbilisi meri "Bank of Georgia" və "TBC Bank"la danışıqlar aparıldığını və maliyyə öhdəlikləri olan şəxslərə güzəşt müddəti veriləcəyini bildirib.

Kaladze bildirib ki, söküntü və tullantıların daşınması işlərinin təxminən bir ay ərzində başa çatdırılması planlaşdırılır. Növbəti mərhələdə isə həmin ərazidə fəaliyyət göstərən şirkət tərəfindən bərpa işləri həyata keçiriləcək.

## HİNDİSTAN—PAKİSTAN: RAKET ZƏRBƏLƏRİNƏ DƏRHAL CAVAB VERİLİB

***Hindistan Pakistanın üç şəhərinə raket zərbələri endirib.*** Bu barədə "ARY News"a Paksitan Ordusunun ictimaiyyətlə əlaqələr şöbəsinin baş direktoru general-leytenant Əhməd Şərif Çaudri məlumat verib.

Onun sözlərinə görə, Hindistan ordusunun hədəfi Pəncab əyalətinin Bahavalpur və Azad Kəşmirin iki şəhəri - Kotli və Müzəffərabad olub. Vurğulanıb ki, hazırda raket zərbələri nəticəsində dəyən ziyan qiymətləndirilir.

General qeyd edib ki, Hindistanın xain hücumu cavabsız qalmayacaq. KİV-in məlumatına görə, Bahavalpurda dörd partlayış qeydə alınıb, vətəndaşlar təşvişə düşərək evlərindən çıxıblar.

Pakistan üç şəhərinə endirilən raket zərbələrinə cavab olaraq Hindistandakı hədəfləri vurub.

"Samaa TV"nin verdiyi məlumata görə, Pakistanda cavab atəşi qərarı Hindistanın mülki şəxslərə hücumu səbəbindən qəbul edilib.

## Aİ GÜRCÜSTANA DƏSTƏYİNİ İFADƏ EDİB



***Avropa İttifaqı Rusiya Federasiyasının Gürcüstanın işğal olunmuş separatçı Abxaziya regionunun Suxumi şəhərinə müntəzəm kommersiya sərnişin reyslərinin həyata keçirilməsinə dair birtərəfli qərarını pisləyir.***

Avropa İttifaqı bu məsələ ilə bağlı bəyanat yayıb və Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyib:

*"Gürcüstan hökumətinin razılığı olmadan və Suxumi hava limanı üçün lazımi beynəlxalq aviasiya kodunun olmadığı halda bu hərəkət Rusiya Federasiyasının Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü pozan növbəti addımıdır. Avropa İttifaqı Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə güclü dəstəyini bir daha təsdiqləyir"*, -deyə bəyanatda bildirilir.

## TRAMP 8 MAYI QƏLƏBƏ GÜNÜ ELAN EDİB



***ABŞ Prezidenti Donald Tramp 8 may tarixinin İkinci Dünya müharibəsində Qələbə Günü elan edilməsi barədə sərəncam verib.***

Bu barədə Ağ Evin mətbuat xidməti tərəfindən yayımlanan məlumatda qeyd olunub.

Tramp bəyanatda "müttəfiqlərin nasional-sosializm və faşizm üzərində qələbəsini" vurğulayaraq, ABŞ-nin İkinci Dünya müharibəsində təxminən 250 min nəfər itki verdiyini xatırladıb. Əgər ABŞ əsgərlərinin bu fədakarlığı olmasaydı, müharibə qazanılmazdı və bugünkü dünyamız tamamilə fərqli görünərdi", - deyə Tramp bildirib.

## BAŞ NAZİR BEŞ REGİONA YENİ DÖVLƏT MÜVƏKKİLLƏRİ TƏYİN EDİB

***Mtsxeta-Mtianeti, Şida Kartli, Samtsxe-Cavaxeti, Quriya və Kvemo Kartli regionlarına yeni dövlət müvəkkilləri təyin edilib.***

***Baş nazirin qərarı ilə Mtsxeta-Mtianetiyə Aleksandre Zaqaşvili, Şida Kartliyə Simon Quledani, Samtsxe-Cavaxetiyə Zaal Qelaşvili, Quriyaya Qiorqi Qurcumelidze, Kvemo Kartliyə isə Levan Xarabadze Dövlət Müvəkkili olaraq təyin ediliblər.***

***İrakli Kobaxidze hökumət administrasiyasında Regional İnkişaf naziri Kaxa Quledani ilə birlikdə yeni təyin olunmuş dövlət müvəkkilləri ilə görüşüb. Baş Nazir regional inkişafın xüsusi əhəmiyyətini vurğulayaraq qeyd edib ki, Regional İnkişaf Nazirliyinin ayrıca qurum kimi yaradılması da bu məsələnin prioritetliyini nümayiş etdirib.***

***Hökumət başçısının sözlərinə görə, regionların inkişafı ilə bağlı layihələrin səmərəli həyata keçirilməsinə daha da böyük diqqət yetiriləcək və bu prosesdə regionların təcrübəsi, peşəkarlığı, vicdanlılığı ilə seçilən liderlərinin olması zəruridir. Baş nazir həmçinin layihələrin keyfiyyətinin və əlaqələndirilməsinin yaxşılaşdırılmasının vacibliyini vurğulayıb və yeni təyin olunan dövlət müvəkkillərinə uğurlar arzulayıb.***



**Quriya** üzrə dövlət müvəkkili **Qiorqi Qurcumelidze** 2021-ci ildən Ozurqeti bələdiyyəsi merinin birinci müavini vəzifəsini yerinə yetirib. Müxtəlif dövrlərdə Ozurqeti Bələdiyyə rəhbərinin müavini, eyni zamanda Ozurqeti Bələdiyyə Şurasının sədr müavini də olub.

**Kvemo Kartlinin** yeni dövlət müvəkkili **Levan Xarabadze** indiyədək Şida Kartlinin dövlət müvəkkili vəzifəsini icra edib. O, müxtəlif dövrlərdə Quriya və Samtsxe-Cavaxeti polis idarələrinin rəisi, Mtsxeta-Mtianeti polis idarəsinin rəis müavini, Acariya Muxtar Respublikası polis idarəsi rəisinin müavini olub. Eləcə də Tbilisi Polis İdarəsində müxtəlif vəzifələrdə çalışıb.



**Mtsxeta-Mtianeti** regionunun yeni dövlət müvəkkili **Aleksandre Zaqaşvili** həm dövlət, həm də özəl sektorda uzun illər iş təcrübəsinə sahibdir. Müxtəlif vaxtlarda MMC "Borjomi Su Elektrik Stansiyası" layihəsinin texniki meneceri olub, 2017-2021-ci illərdə Kazbeqi Bələdiyyəsinin meri, "Arkmaster" şirkətinin texniki direktoru, eyni zamanda "York Towers"in baş memarı vəzifələrini icra edib.



**Şida Kartli** üzrə dövlət müvəkkili **Simon Quledani** indiyədək Qori Bələdiyyəsi merinin birinci müavini vəzifəsini icra edib. O, müxtəlif dövrlərdə Qori, Kaspi, Kareli və Xaşuri bələdiyyə rəhbərlərinin birinci müavini, Tetritskaro Bələdiyyəsinin İnfrastrukturun inkişafı, memarlıq və tikinti xidmətinin rəhbəri, Tetritskaro Bələdiyyəsinin Maliyyə və Büdcə Xidməti və Nəzarət Xidmətinin rəhbəri olub.





**Samtsxe-Cavaxetinin** yeni dövlət müvəkkili **Zaal Qelaşvili** Borjomi Bələdiyyəsi Meriyasının LEPL "Bakuriani İnkişaf Agentliyi"nin Nəzarət Xidmətinin rəhbəri olub. O, həmçinin Daxili İşlər Nazirliyinin Baş Müfəttişliyində müxtəlif vəzifələrdə çalışıb.

## GÜRCÜSTAN XİN: AVROPA ŞURASI GÜRCÜSTANIN SUVERENLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ BİR DAHA DƏSTƏKLƏYİR




***2025-ci il aprelin 30-da Avropa Şurasının Nazirlər Komitəsi gündəlikdəki "Avropa Şurası və Gürcüstandakı münaqişə" məsələsi çərçivəsində 12-ci qərarını qəbul edib.***

Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir.

Xarici İşlər Nazirliyinin məlumatına görə, Avropa Şurası və təşkilatın 46 üzv dövləti Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində suverenliyi və ərazi bütövlüyünə bir daha möhkəm dəstəyini ifadə edir.

*"Qərarda qeyd olunub ki, Rusiya Federasiyası beynəlxalq öhdəliklərini, o cümlədən Avropa İttifaqının vasitəçiliyi ilə imzalanmış 2008-ci il 12 avqust atəşkəs razılaşmasını pozur və Gürcüstanın Abxaziya və Tsxinvali bölgələrində qanunsuz hərbi mövcudiyyətini davam etdirir.*

*Nazirlər Komitəsinin qərarında üzv dövlətlər bir daha Avropa Şurasının 2023-cü il Reykyavik Zirvəsinin tarixi Bəyannamasini alqışlayırlar. Bəyanatda təşkilatın üzv ölkələrinin liderləri Rusiyanı beynəlxalq öhdəliklərini yerinə yetirməyə və Gürcüstanın işğal olunmuş ərazilərindən qoşunlarını dərhal, tam və qeyd-şərtsiz çıxarmağa çağırıblar,"* – deyə Gürcüstan Xarici İşlər Nazirliyinin məlumatında qeyd olunub.

## XARİCİ İŞLƏR NAZİRLİYİ RUSİYANIN ABXAZİYADAKI HAVA LİMANINDAN QANUNSUZ İSTİFADƏSİNƏ DAİR ETİRAZ BƏYANATI YAYIB

***Gürcüstan Xarici İşlər Nazirliyi Rusiyanın Suxumi Hava Limanından qanunsuz istifadəsinə dair etiraz bəyanatı yayıb. Bəyanatda Gürcüstanın işğal altındakı Abxaziya bölgəsi ilə hava nəqliyyatının başladılmasından narahatlıq ifadə olunub.*** Rəsmi Tbilisi Rusiyanın Suxumi hava limanından istifadə etməsini suverenliyin pozulması kimi qiymətləndirib. Nazirliyin məlumatına görə, 2025-ci il mayın 1-də Rusiya aviaşirkəti tərəfindən Suxumi hava limanına həyata keçirilən uçuş və hava limanının istismarı ilə bağlı qondarma rejimlə imzalanmış saziş Gürcüstanın suverenliyinin və ərazi bütövlüyünün, eləcə də beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, o cümlədən BMT Nizamnaməsinin və Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) Konvensiyasının kobud şəkildə pozulmasıdır. Bəyanatda qeyd olunur ki, eyni tarixdə Rusiyadan Abxaziyaya dəmir yolu daşımalarının həyata keçirilməsi də narahatlıq doğurur. Nazirliyin açıqlamasında deyilir: *"Gürcüstan Xarici İşlər Nazirliyi bu məsələ ilə bağlı beynəlxalq mexanizmləri işə salmağa davam edir. Rusiyanın Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş qanunsuz addımlarına beynəlxalq ictimaiyyət tərəfindən lazımi cavab verilməsini tələb edir. Həmçinin, Gürcüstan Rusiya Federasiyasını 2008-ci il 12 avqust tarixli atəşkəs razılaşmasına əməl etməyə çağırır".*



## GÜRCÜSTANDA PENSİYA SİSTEMİNDƏ DƏYİŞİKLİKLƏR:
## İŞƏ GÖTÜRƏNLƏRƏ YENİ ÖHDƏLİKLƏR VƏ CƏRİMƏLƏR TƏTBİQ OLUNUR

***2025-ci il mayın 1-dən Gürcüstanda pensiya sisteminə dair yeni qaydalar qüvvəyə minir.***

Bu barədə məlumatı Gürcüstanın Pensiya Agentliyi yayıb. Yeniliklərə əsasən, 2025-ci il mayın 1-dən etibarən işəgötürənlər pensiya ayırmalarını yalnız Gürcüstanın Gəlirlər Xidmətinin gəlir bəyannaməsi vasitəsilə həyata keçirə biləcəklər.



Eyni tarixdən başlayaraq, pensiya sxeminə könüllü şəkildə qoşulmaq və ya yenidən qoşulmaq istəyən əməkdaşlar və ya fərdi sahibkarlar bu prosesi işəgötürən vasitəsilə deyil, birbaşa Gürcüstanın Pensiya Fonduna və ya Ədliyyə Evinin istənilən filialına müraciət etməklə yerinə yetirəcəklər.

Yenilənmiş qaydalara əsasən, mayın 1-dən işəgötürənlər üçün pensiya ayırmalarının düzgün şəkildə həyata keçirilməməsinə görə maliyyə sanksiyaları nəzərdə tutulur. Belə ki:

- **Pensiya öhdəliyinin pozulması halında işəgötürənə 500 lari cərimə tətbiq olunacaq;**
- **Eyni pozuntu təkrar baş verərsə, cərimə məbləği 1000 lariyə qədər artacaq.**

Pensiya Agentliyi bildirir ki, bu qaydaların icrasını yoxlamaq məqsədilə işəgötürənlərə qarşı planlı və qəfil monitorinqlər keçiriləcək. Bu yoxlamalar həm pensiya öhdəliklərinin yerinə yetirilməməsi, həm də artıq məbləğdə pensiya köçürmələrinin aşkar edilməsi məqsədi daşıyır.

## BAKI-TBİLİSİ QATARI BU TARİXDƏN FƏALİYYƏTƏ BAŞLAYIR
### BİLETİN QİYMƏTLƏRİ NƏ QƏDƏRDİR?

***Azərbaycan və Gürcüstan ilk sərnişin qatarını Gürcüstanın Müstəqillik Günü – 26 may və Azərbaycanın Respublika Günü – 28 maya qədər yola salmaq barədə razılığa gəliblər.***

Bu barədə "Minval" Azərbaycanda məlumatlı mənbəyə istinadla məlumat yayıb.

Qeyd olunub ki, təxminən ilk qatar məhz həmin tarixlərdə yola düşəcək.

Məlumata görə, tərəflər hələ də bir sıra nüansları, o cümlədən gediş haqlarını müzakirə edirlər.

Eyni məlumata əsasən, "Gürcüstan Dəmir Yolları" öz tərəfindən bir istiqamət üzrə bilet qiymətlərini müəyyən edib və tarif cədvəlini Azərbaycan tərəfinə təqdim edib. Hazırda Gürcüstan ümumi vaqonlara (platskartlara) biletlərin 50 lari, yataqlı vaqonlara (kupelərə) isə 70 lari qiymətinə satılmasını təklif edib. Azərbaycan tərəfinin hansı qiymətləri təklif etdiyi isə hələlik məlum deyil.

Xatırladaq ki, bu ilin 18 fevral tarixində Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyinin yaydığı məlumata əsasən, Tbilisidə səfərdə olan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları"nın sədri Rövşən Rüstəmov, Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Levan Davitaşvili ilə keçirilən işgüzar görüş zamanı 2025-ci ilin 1 may tarixindən etibarən bərpası planlaşdırılan Bakı-Tbilisi-Bakı sərnişin qatarının fəaliyyətə başlamasını müzakirə ediblər.



Nazirliyin həmin açıqlamasında qeyd olunurdu ki, sərnişin qatarının hərəkəti cari ilin 1 may tarixindən etibarən bərpa olunacaq. Daha sonra Gürcüstan İqtisadiyyat Nazirlyindən bildirilib ki, tərəflər intensiv şəkildə çalışır və sərnişin daşımalarının bərpası ilə bağlı dəqiq tarix daha sonra açıqlanacaq

## "MAGTICOM" MOBİL İNTERNET TARİFLƏRİNİ ARTIRIR

***Gürcüstanın aparıcı mobil operatorlarından biri olan MagtiCom, 2025-ci il iyunun 1-dən etibarən mobil internet xidmətlərinin qiymətlərini artıracağını açıqlayıb.*** Bu barədə şirkət tərəfindən yayımlanan rəsmi məlumatda bildirilir. Şirkətin məlumatına görə, tarif dəyişikliyi həftəlik və aylıq limitsiz internet paketlərinə şamil olunacaq. Dəyişiklik nəticəsində sözügedən paketlərin qiymətində müvafiq olaraq 1 və 3 lari artım olacaq.

Belə ki, 2025-ci il iyunun 1-dən etibarən yeni qiymətlər aşağıdakı kimi olacaq:

- **"Limitsiz İnternet - Həftəlik" paketi: 9 laridən 10 lariyə qalxacaq;**
- **"Limitsiz İnternet - Aylıq" paketi: 32 laridən 35 lariyə yüksələcək.**

MagtiCom həmçinin bildirir ki, iyunun 1-dən etibarən bu paketlərin avtomatik yenilənməsi zamanı artıq yeni tariflər qüvvədə olacaq.

Şirkətin qaynar xəttindən verilən açıqlamaya əsasən, bu dəyişiklik yalnız qeyd olunan mobil internet paketlərinə aiddir və digər xidmətlərə şamil olunmur.

## Sitat guşəsi



"Bizim mövqeyimiz aydındır – Gürcüstan Suxumi hava limanının beynəlxalq normaların pozulması ilə fəaliyyətini qətiyyətlə pisləyir. Bu, təkcə bizim mövqeyimiz deyil – ICAO da bu mövqeyi dəstəkləyir. ICAO ilə sıx əməkdaşlıq edirik."

**Levan Davitaşvili,**
**Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri.**



"Seçkilərdə uduzan bürokratlar əslində "Dərin Dövlət"in nümayəndələridir. Onların məqsədi Gürcüstanın mənafeyini qoruyan vətənpərvərləri deyil, ölkəni xaosa sürükləyə biləcək agentləri hakimiyyətə gətirməkdir. Ukraynada da eyni ssenari həyata keçirildi".

**Kaxa Kaladze,**
**Tbilisi şəhərinin meri.**



"Bu sahədə qanunvericiliyin natamamlığı səbəbindən gürcü işçilərin öz işlərini itirməsi, onların yerini isə əcnəbilərin tutması kimi hallar yaranır. Eyni zamanda, onlara qarşı heç bir tələb irəli sürülmür, işəgötürən isə dövləti məlumatlandırmağa məcbur deyil".

**Aleksandr Daraxvelidze,**
**Gürcüstan Daxili İşlər nazirinin müavini.**



"Məndə belə bir daxili ehtiyac olur. Amma yəqin ki, bütün bu səbəbləri sadalamağa dəyməz. "Nord-Ost" böhranı zamanı mən həyatımda ilk dəfə diz çökdüm".

**Vladimir Putin,**
**Rusiya Prezidenti.**



"İndi hər şey ruslardan və ukraynalılardan asılıdır. Onlar razılığa gəlməli və bu qəddar münaqişəni dayandırmalıdırlar. Bu, yaxın müddətdə bitməyəcək. Bəli, ukraynalılar hücuma məruz qaldıqları üçün qəzəblidirlər. Amma onlar bir neçə mil ərazidən ötrü minlərlə əsgərini itirməkdə davam edirlər. Ümid edirəm ki, hər iki tərəf ağıla gələcək. Əgər bunu etsələr, bu, ona görədir ki, Donald Tramp 21-ci əsrin ən yaxşı sövdələşməsini təklif edib".

**J.D.Vens,**
**ABŞ-nin vitse-prezidenti**



"Ticarət gərginliyi və bazar dəyişkənliyi qeyri-müəyyənlik yaradır. Mən bu amillərin inkişaf etməkdə olan üzv ölkələrin iqtisadiyyatlarına, xüsusən də ən yoxsul və ən həssas insanlara potensial təsirindən dərin narahatam. Biz mümkün iqtisadi tənəzzülə və artan zəifliklərə hazır olmalıyıq".

**Masato Kanda,**
**Asiya İnkişaf Bankının prezidenti.**

## REGİON XƏBƏRLƏRİ

### Dmanisi: YOL ÇƏKİLİŞİ İŞLƏRİ DAVAM EDİR



***Dmanisi Bələdiyyəsində dövlət əhəmiyyətli 15 kilometrlik yol salınır.***

Dmanisi meri Koba Muradaşvili Didi Dmanisi-Dmanisi-Qomareti-Bediani yolunun asfaltlanma işlərinə baxış keçirib.

Merin qeyd etdiyi kimi, layihə çərçivəsində asfalt örtüyünün, drenaj sistemlərinin, körpülərin və suötürücülərin çəkilməsi, həmçinin yolun genişləndirilməsi gerçəkləşəcək. Dəyəri 19 milyon lari olan layihə Gürcüstanın Yollar Departamenti tərəfindən həyata keçirilir.

### Saqareco: MER AVTANDİL QULİKAŞVİLİ TİBB MƏRKƏZİNƏ BAŞ ÇƏKİB

***Saqareco Bələdiyyəsinin meri Avtandil Qulikaşvili Saqarecoda yeni istifadəyə verilmiş "Sağlam Xətt" tibb mərkəzində olub, rəhbərlikdən və yerli tibb işçilərindən klinikanın xidmətləri haqqında ətraflı məlumat alıb.***

Müasir standartlara malik olan klinika Saqareco sakinlərinə həm tibbi, həm də estetik xidmətlər təklif edir. Tibb mərkəzinin nümayəndələrinin sözlərinə görə, heyətin üzvləri yüksək ixtisaslı mütəxəssislərdir.

Saqareco merinin qeyd etdiyi kimi, Bələdiyyə özəl sektorun inkişafına və əhalinin keyfiyyətli tibbi xidmətlər ala bilməsinə böyük əhəmiyyət verir. Avtandil Qulikaşvili klinikanın rəhbərliyi ilə ilkin tibbi yardıma əlçatanlığı artırmaq üçün yerli əhaliyə müəyyən pulsuz tibbi xidmətlərin göstərilməsi imkanlarını müzakirə edib.

Klinika yerli sakinlərə kardioloji, terapevtik, endokrinoloji, nevroloji, dermatoloji və pediatrik xidmətlər təklif edir. Tibb mərkəzində ambulator kardioloji müayinələr, ultrasəs diaqnostikası, 1000-dən çox laborator müayinələr aparılır.



### Marneuli: ABADLAŞDIRMA LAYİHƏLƏRİ HƏYATA SKEÇİRİLİB

***Keçən il Marneuli Bələdiyyəsində parkların və idman meydançalarının bərpası və abadlaşdırılması istiqamətində mühüm infrastruktur layihələri həyata keçirilib.*** Qeyd olunan işlər 2024-cü ildə başlayıb və 2025-ci ilin əvvəlində uğurla başa çatdırılıb.



Layihələr çərçivəsində Marneuli şəhərinin müxtəlif yerlərində yeni parklar yaradılıb və mövcud infrastruktur bərpa edilib. Ümumi dəyəri 3 000 000 lari olan layihələr mərkəzi və yerli büdcələrdən maliyyələşdirilib. Hesabatla bağlı işgüzar görüşdə, Meriyanın struktur bölmələrinin rəhbərləri iştirak ediblər.

### Telavi: BEYNƏLXALQ FESTİVAL KEÇİRİLİB

***Telavi şəhərinin Vaja-Pşavela adına Dövlət Dram Teatrında 20-ci Beynəlxalq "Pasxa festivalı" keçirilib.***

Pasxa bayramında Telavi bələdiyyəsinin meri Levan Andriaşvili, mer müavini Pikria Kuşitaşvili, Kaxeti Bələdiyyəsinin rəhbərləri iştirak ediblər.



Festivalda soprano Nana Kavtaraşvili, tenor Paolo Larditzone və konsertmeyster İrina Aivazova çıxış ediblər.

"Pasxa festivalı" ənənəvi xarakter alıb və Telavidə artıq səkkizinci dəfə keçirilib. Festivalın təsisçisi Manana Xvedelidzedir.

Festival Gürcüstanın Mədəniyyət Nazirliyi, Tbilisi Meriyası, İtaliya səfirliyi, Kaxeti regionu üzrə Dövlət Müvəkkili Administrasiyası və regionun bütün səkkiz bələdiyyə merlərinin dəstəyi ilə təşkil olunub.

## BEYNƏLXALQ HƏYAT

### RUSİYA İLƏ ABXAZİYA ARASINDA HAVA VƏ DƏMİR YOLU REYSLƏRİ BAŞLAYIB

***Rusiya və Gürcüstanın işğal altında olan Abxaziya arasında birbaşa aviareyslər, Rusiyadan Suxumiyə isə sərnişin qatarının hərəkəti bərpa olunur.***




Bu barədə Rusiya mediası məlumat yayıb.

İlk reysi "UVT Aero" şirkəti Vnukovo-Suxumi marşrutu üzrə yerinə yetirəcək.

Uçuşların 30 illik fasilədən sonra bərpası mayın 3-nə planlaşdırılsa da, yüksək tələbə görə aviaşirkət mayın 1-nə əlavə reyslər təyin etməyə qərar verib.

Suxumi istiqamətinə uçuşları həmçinin "Ifly" şirkəti Moskvadan, "NordStar" şirkəti isə Moskva ilə yanaşı Krasnoyarskdan da həyata keçirəcək.

Qeyd edək ki, bu ilin fevralın 7-də Suxumi aeroportu Moskvadan ilk sərnişin təyyarəsini test rejimində qəbul edib. Hava limanı 1993-cü ildən fəaliyyət göstərmir. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) Suxumi aeroportunu tanımır və ona məxsus kodu 2006-cı ildən ləğv edib. 2023-cü ildə hava limanının yenidən qurulması ilə bağlı Suxumi və Moskva arasında saziş imzalanıb.

Rəsmi Tbilisi Suxumi hava limanının istismarını qanunsuz hesab edir. Yayılan məlumatlara əsasən, Gürcüstanın Mülki Aviasiya Agentliyi ICAO-ya Rusiya aviaşirkətlərinə Suxumiyə reys yerinə yetirmələrini qadağan etməsi tələbi ilə müraciət ünvanlayıb.

### ABŞ VƏ UKRAYNA FAYDALI QAZINTILARA DAİR SAZİŞ İMZALAYIBLAR

***ABŞ və Ukrayna hökumətləri faydalı qazıntılara dair saziş imzalayıblar.***



Bu barədə "Bloomberg" mənbələrə istinadən məlumat yayıb.

Onların sözlərinə görə, saziş ABŞ-yə alüminium, qrafit, neft və təbii qaz da daxil olmaqla Ukraynanın təbii ehtiyatlarının inkişafı ilə bağlı yeni investisiya layihələrinə imtiyazlı giriş imkanı verəcək.

Ukrayna Baş nazirinin birinci müavini və iqtisadiyyat naziri Yuliya Sviridenko ABŞ ilə birgə investisiya fondunun yaradılmasını nəzərdə tutan faydalı qazıntılara dair sazişin imzalandığını təsdiqləyib. O, bu barədə feysbukdakı səhifəsində paylaşım edib.

Sənədə əsasən, Ukrayna yeni icarə haqqı və yeni sahələrdə faydalı qazıntıların çıxarılması üçün yeni lisenziyalardan əldə olunan bütün gəlirin 50 faizini bu fonda verəcək. ABŞ və Ukrayna fondun idarə olunmasında bərabər səsə sahib olacaqlar.

Müqavilə Ukraynanın ABŞ qarşısında birbaşa borc öhdəliklərini nəzərdə tutmur.

### HİNDİSTAN HAVA MƏKANINI PAKİSTAN TƏYYARƏLƏRİ ÜÇÜN BAĞLAYIB



***30 aprel tarixindən Hindistan hava məkanını Pakistan təyyarələri üçün bağlayıb.***

Bu barədə NOTAM-ın aviasiya idarəsi məlumat yayıb.

Qeyd olunur ki, qərar aprelin 30-dan mayın 23-dək qüvvədə olacaq.

Xatırladaq ki, aprelin 22-də Cəmmu və Kəşmir bölgəsinin Hindistana aid hissəsindəki Pahalqam şəhərində turistlərin sıx toplaşdığı yerdə terror aktı baş verib. Son məlumatlara görə, 26 nəfər ölüb. Hindistan hadisəyə görə məsuliyyəti Pakistanın üzərinə qoyub.

Pakistan Senatı İslamabadın hücumda hər hansı rolunu inkar edən qətnaməni yekdilliklə qəbul edib.

Terror aktından sonra Hindistan və Pakistan bir-birinə qarşı bir sıra tədbirlər görüb, xüsusilə hava məkanı bağlanıb və vizalar ləğv edilib ki, bu da iki ölkə arasında gərginliyin əhəmiyyətli dərəcədə artmasına səbəb olub.

### İSRAİL MEŞƏ YANĞINLARI İLƏ MÜBARİZƏ APARIR



***Ötən Çərşənbə günündən Qüdsün qərbində meşə yanğınları başlayıb və sürətlə nəzarətdən çıxıb.***

Hakimiyyət bir neçə yaşayış məntəqəsindən sakinlərin təxliyə olunduğunu elan etməli və bir neçə yolu bağlamalı olub.

İsrailin Aşkelon, Beer Şeva, Modiin və s. şəhərlərində Müstəqillik Günü tədbirləri hava şəraitinə görə ləğv edilib.

İsrailli həkimlər EFE-yə bildiriblər ki, indiyədək 19 nəfər xəsarət alaraq müalicə almaq üçün müraciət edib, onlardan 13-ü xəstəxanaya yerləşdirilib. Bununla yanaşı 17 yanğınsöndürən əməkdaşı da xəsarət alıb.

İsrail Qüds yaxınlığındakı meşə yanğınlarının söndürülməsi üçün Azərbaycan, Argentina, Böyük Britaniya, Yunanıstan, İspaniya, İtaliya, Kipr, Portuqaliya, Şimali Makedoniya, Fransa, Xorvatiya, Çexiya və İsveçdən kömək istəyib.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HELİUM** *is. [yun ] kim.* Sıfır qrupundan kimyəvi element.

**HELMİNTOLÓGİYA** [*yun.* helma – parazit, qurd, bağırsaqqurdu və logos – elm] Tüfeyli qurdlardan və onların törətdiyi xəstəliklərdən bəhs edən elm.

**HEMATOGÉN** [ *yun.* haima – qan və genos – doğuş] Dərman preparatı; qliserin və şərabda həll olunmuş məhlul.

**HEMATOLOGİYA** *is. [ yun. ] tib.* Qanın tərkibini və xüsusiyyətini öyrənən elm sahəsi.

**HEMOQLOBİN** *[ yun.* haima – qan və *lat.* globus – kürəcik] Qana qırmızılıq verən maddə (qan kürəciklərinin əsas tərkib hissəsi olub, orqanizmdə oksigeni və karbonu toxumalara yayıcı vəzifəsini görür).

**HEPATİT** *is. [ yun. ] tib.* Qara ciyərin iltihabı.

**HERBÁRİ** [*lat.* herbarius – bitkiyə aid] Qurudulmuş bitki kolleksiyası.

**HERİK** *is. k.t.* Payızda şumlanıb dincə qoyulma. *Qarğıdalıdan sonra əkilmiş buğdanın dəni herik edilmiş zəmidə yetişdirilən buğdanın dənindən ağır olur.*

**Herik şumu** *k.t.* – payız şumu.

**HERMAFRODİT** *is. [yun.]* Kişi və qadın əlamətləri olan insan və ya heyvan.

**HERÓQLİF** *[yun.]* İdeoqrafik yazı sistemində heca və ya səs bildirən fiqurlu işarə. *Heroqlif yazısı. Heroqliflər müxtəlif sayda qrafik ünsürdən təşkil olunur.*

**HERS** [ *xüs. is.* -dən] fiz. Rəqs tezliyinin ölçü vahidi.

**HERSÓQ** *[alm.]* Qərbi Avropada yüksək zadəgan, knyaz titulu.// Belə titulu olan adam.// Orta əsrlərdə iri feodal.

**HERSOQLUQ** *is.* 1. Başında hersoq duran feodal dövləti.

2. Hersoq titulu.

**HESAB** *is. [ər.]* 1. Hər hansı hesablamanın rəqəmlərlə ifadə olunan nəticəsi; say, miqdar.

*Əgərçi bizim qoşunumuz da hesab və ədəddə taifeyi-Osmaniyyədən kəm deyildi...*

M. F .Axundzadə.

**Hesab etmək (eləmək)** – saymaq, hesablamaq. Fabrikin gəlirini hesab etmək. *Gəlir və çıxarını hesab etmək.*

*Xozeyin dinməz-söyləməz çötkəni götürüb, çaq-çuq hesab elədi.*

S. M.Qənizadə.

2. Riyaziyyatın, rəqəmlərin sadə xüsusiyyətlərini və onlarla həll olunan əməliyyatı öyrənən bəhsi. *Hesab dərsi. Hesabdan "5" almaq.*

*Lalə yalnız Şirmayının məktəb işlərinə qarışardı, vaxtı olanda dərslərini xəbər alar, hesab məsələlərinin həllinə kömək edirdi.*

M. Hüseyn.

3. Borc, verəcək. [Hafizə xanım:] *Rəhim kişi, hesabın hamısını gətiribsənmi?*

Ə. Haqverdiyev.

4. *müh.* Maliyyə əməliyyatı və ya hər hansı idarənin, müəssisənin maliyyə əməliyyatının mühasibat uçotu üçün əsas olan sənədlər. *İdarənin hesab nömrəsi.*

5. **Hesabla** şəklində *zərf* – ehtimal ki, güman ki, ola bilər ki. *Hesabla bu gün gəlməlidir.*

*Hesabla [*Tapdıq*] hospitalda bir az da yatmalı idi.*

Ə. Əbülhəsən.

6. **Hesabına** şəklində *zərf* – vəsaiti ilə, pulu ilə. *Öz hesabına ezamiyyətə getmək.*

*Fikirləşir bir qədər;*
*Bu gün hara gedəcək;*
*Yaxud kimin hesabına;*
*Harda nahar edəcək?*

Z. Xəlil.

**HESABAT** *is. [ ər.* "hesab" söz. cəmi]

1. Öz işi, verilən tapşırığı yerinə yetirməsi, yaxud apardığı tədqiqatın nəticəsi və s. haqqında məsul şəxsə, ya kollektivə, təşkilata və s. verilən yazılı və ya şifahi rəsmi məlumat. *İllik hesabat. Şöbənin hesabatı.*

*Maral qonaqları yola saldıqdan sonra komissarlığa getmiş,...göndərilən hesabatla tanış olmaq üçün iki saata qədər orada oturmuşdu.*

Ə. Əbülhəsən.

2. Bir şey və ya iş haqqında izahat, geniş məlumat.

[Muxtar Firəngizə:] *Elə bilirəm ki, kişinin arvada hesabat verməsi məcburi deyildir.*

B. Bayramov.

// *müh.* Buraxılmış pulun xərclənməsi haqqında sənəd. *Maliyyə hesabatı. Təhtəlhesab pulun hesabatı.*

**HESABDAR** *is.* [ *ər.* hesab və *fars.* ...dar] Hesabdarlıq işçisi, mütəxəssisi.

[Fərhad] *bir il, iki il hesabdar, ferma müdiri, mühasib olmuşdu.*

M. İbrahimov.

*Qələndərov əvvəllər Xaçbulaqda qoyunçuluq fermasında hesabdar idi.*

Mir Cəlal.

// *köhn.* Mühasib.

*Orada mənim maaşımın ayda on tümən artırılması üçün hesabdara əmr verilmişdi...*

M. S. Ordubadi.

**HESABDARLIQ** *is.* 1. Hesablar üzrə əməliyyat uçotu aparılması; mühasibat (buxalteriya) uçotu.

2. Hesabdar vəzifəsi.

*Yarməmməd çoxdan hesabdarlıqdan bir pillə yuxarı qalxmaq fikrində idi.*

M. İbrahimov.

**HESABİ** *sif. və zərf [ ər. ] dan.* Düz, doğru, haqlı. *Hesabi tələb.*

[Teymur ağa:] *Bu hesabi sözdür, amma yalqız bu ehtimal ilə xatircəm olmaq olmaz.*

M. F. Axundzadə.

**HETEROGÉN** *sif. [ yun. ]* Eyni cinsdən olmayan, müxtəlif tərkibli hissələrdən ibarət olan. *Heterogen reaktor.*

**HEY** *is.* Qüvvət, iqtidar, cismani enerji. *Canında hey yoxdur.*

**Heydən düşmək (kəsilmək)** – gücdən düşmək, üzülmək, əldən düşmək.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### **ნაყოფიერების დრო** (Nağopierebis dro ) **Bərəkət dövrü**

**ახლა ის დროა, როცა ბაღებსა და მინდვრებში სიცოცხლე დუღს.** (Axla is droa, rotsa bağebsa da mindvrebşi sitsotsxle duğs.) **– İndi elə vaxtdır ki, bağlarda və tarlalarda həyat qaynayır.**

**ხილი მწიფდება, ბოსტნეული იზრდება.** (Xili mtsipdeba, bostneuli izrdeba.) **– Meyvələr yetişir, tərəvəzlər boy atır.**

**ყოველი კუთხიდან სიუხვის სურნელი მოდის.** (Ğoveli kutxidan siuxvis surneli modis.) **– Hər yandan bolluq ətri duyulur.**

**ბუნება გვაჩუქებს სიმშვიდესა და შრომის ნაყოფს.** (Buneba qvaçukebs simşvidesa da şromis nağops.) **– Təbiət bizə sakitlik və zəhmətin bəhrəsini bəxş edir.**

**ეს დრო გვეუბნება, რომ შრომას ყოველთვის შედეგი აქვს.** (Es dro qveubneba, rom şromas ğoveltvis şedeqi akvs.) **– Bu zaman bizə deyir ki, zəhmətin bəhrəsi həmişə var.**

**ამ დროს მცირე ბაღიც კი დიდ ოცნებებს ატარებს.** (Am dros mtsire bağits ki did otsnebebs atarebs.) **– Bu vaxt kiçik bir bağ belə böyük arzuları daşıyır.**

**თესლი იმედით ირგვება და მზისგან სითბოს ელის.** (Tesli imedit irqveba da mzisqan sitbos elis.) **– Toxum ümidlə əkilir və günəşdəns istilik gözləyir.**

**ყოველი მწვანე ღერი გამარჯვების სიმბოლოა.** (Ğoveli mtsvane ğeri qamarjvebis simboloa.) **– Hər yaşıl cücərti bir qələbə rəmzidir.**

**ეს სეზონი არა მხოლოდ მოსავლის მიღების დროა, არამედ შანსების შექმნისაც.** (Es sezoni ara mxolod mosavlis miğebis droa, aramed şansebis şekmnisats.) **– Bu mövsüm yalnız məhsul vaxtı deyil, həm də fürsətlər yaratmaq zamanıdır.**

**ტყე, მინდორი, ბაღი – ყველა ინსპირაციის წყაროა.** (Tğe, mindori, bağı – ğvela inspiratsiis tsğaroa.) **– Meşə, tarla, bağ – hamısı ilham mənbəyidir.**

**ბუნებას თუ მოუსმენ, ახალ გზებს გაჩვენებს.** (Bunebas tu mousmen, axal qzebs qaçvenebs.) **– Əgər təbiətə qulaq assan, o sənə yeni yollar göstərər.**

**ყველას შეუძლია ბარაქიანი მიწისგან რაღაც ღირებული შექმნას.** (Ğvelas şeudzlia barakiani mitsisqan rağats ğirebuli şekmnas.) **– Hər kəs bərəkətli torpaqdan bir dəyər yarada bilər.**

**მთავარია, დავაფასოთ მიწა და შრომა.** (Mtavaria, davapasot mitsa da şroma.) **– Əsas odur ki, torpağı və zəhməti qiymətləndirək.**

**ნუ დავივიწყებთ, რომ ბარაქა მხოლოდ შრომის შედეგია.** (Nu davivitsğebt, rom baraka mxolod şromis şedeqia.) **– Unutmayaq ki, bərəkət yalnız zəhmətin nəticəsidir.**

**ბუნებამ ბევრი მოგვცა – ახლა ჩვენი ჯერია.** (Bunebam bevri moqvtsa – axla çveni jeria.) **– Təbiət bizə çox şey verdi – indi sıra bizdədir.**

**დავიცვათ გარემო, შევიყვაროთ მიწა.** (Davitsvat qaremo, şeviğvarot mitsa.) **– Ətrafı qoruyaq, torpağı sevək.**

**ბარაქის სეზონმა გვახსენებს, რომ პატარა შრომაც კი დიდ მომავალს ქმნის.** (Barakis sezonma qvaxsenebs, rom patara şromats ki did momavals kmnis.) **– Bərəkət fəsli bizə xatırladır ki, kiçik zəhmət belə böyük gələcək yaradır.**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

28 aprel 2025-ci il **"SAKARTVELOS RESPUBLİKA"**

## Balkan yarımadasında müharibə gözlənilir? (ixtisarla)

Martın ortalarında Xorvatiya, Albaniya və Kosovo hərbi əməkdaşlıq haqqında razılığa gəliblər. Buna cavab olaraq, Serbiya və Macarıstan hərbi alyansın qurulması barədə bəyanat verib. Bu addımlar regionun sabitliyini sarsıdacaqmı? – Bu suala cavabı "Deutsche Welle" nəşri verib.

Serb dövlət mediası yekdilliklə Serbiya və Macarıstan arasında hərbi əməkdaşlıq haqqında sazişi yüksək qiymətləndirir. "Regionu sarsıdacaq bomba", - "Informer" tabloid nəşrinin başlığıdır. Serb dövlət qəzeti "Kurir" "tarixi an" barədə yazır. "Novosti" nəşri sözügedən müqaviləni "dəmir dostluğun yeni sübutu" adlandırır, "Republika" portalı isə "xorvatların və albanların Serbiya-Macarıstan hərbi alyansından qorxduğunu" bəyan edib. Sözügedən hərbi alyans haqda müqavilə Serbiyanın paytaxtı Belqradda 1 aprel 2025-ci ildə Macarıstan müdafiə naziri Kristof Şalay-Bobrovnitski və Serbaya müdafiə naziri Bratislav Qaşiç tərəfindən imzalanıb. Bir neçə gün sonra Bosniya-Herseqovinanın tərkibindəki Serb Respublikasının (Republika Srpska) prezidenti Milorad Dodik bosniyalı serblərin "yeni hərbi alyansa qoşulacaqlarını" elan edib.

***Zaqreb, Tirana və Priştina arasında hərbi müqavilə***

18 mart 2025-ci ildə Albaniyanın paytaxtı Tiranada üç ölkənin müdafiə nazirləri tərəfindən imzalanan sənəd NATO-nun Strateji Konsepsiyası və Avropa İttifaqının təhlükəsizlik siyasəti çərçivəsində əməkdaşlığı nəzərdə tutur. Sənədə əsasən, müdafiə qurumları arasında əməkdaşlığın dərinləşdirilməsi və hərbi kadrların hazırlanması planlaşdırılır. Serbiya yeni hərbi aliansdan təhlükə gözlədiyini bəyan etsə də, Xorvatiyanın baş naziri Andrey Plenkoviç "sözügedən əməkdaşlığın düşmənçiliyi nəzərdə tutmadığını" bildirib.

***Belqrad və Budapeşt nə haqda razılaşıblar?***

Serb hərbi ekspert Aleksandr Radiç bir neçə portalda sözügedən məsələnin əslində nə ilə əlaqəli olduğunu izah edib. O bildirib ki, müqavilə hərbi ittifaq elementləri daşımır. Sənəddə yalnız 2023-cü il müqaviləsi əsasında hər il dəqiqləşdirilən konkret hərbi əməkdaşlıq layihələri var. Vuçiçin sözlərinə görə, hərbi ittifaq məqsəddir və onun yaradılma layihəsi indilərdə müəyyən edilib.

***Qərbi Balkanlarda müharibə təhlükəsi varmı?***

Qərbi Balkan ölkələri illər ərzində silahlanır. 1 yanvar 2025-ci ildə məcburi hərbi xidmətə qayıdan Xorvatiya Fransadan "Rafale" döyüş təyyarələri alıb və Almaniyanın "Leopard" tanklarının tədarükü ilə bağlı danışıqlar aparır. Serbiya öz növbəsində Parislə çoxməqsədli döyüş təyyarələri almaq üçün müqavilə imzalayıb, həmçinin Rusiya və Çindən silah sistemləri alır. Bəs regionda vəziyyət həqiqətən nə dərəcədə gərgindir? Aprelin əvvəlində NATO-nun baş katibi Mark Rutte bildirib ki, alyans tərəfindən Brüsseldə keçiriləcək xarici işlər nazirlərinin iclasında gündəlik məsələyə Balkan yarımadasındakı vəziyyəti daxil etmək lazım olmayıb. Təxminən bir il qabaq NATO-nun keçmiş baş katibi İyen Stoltenberq əmin idi ki, Balkanlarda birbaşa hərbi təhlükə yox idi. Serb ekspert Vuk Vukasanoviç qeyd edib ki, güc nümayişinə baxmayaraq, Balkan ölkələrinin müharibə üçün olduqca az imkanları var. Ekspert eləcə də qeyd edib ki, müharibə yerli hakimiyyətlər üçün də problemlərə səbəb ola bilər.

Ayrıca, reqionda NATO-nun mövqeləri də olduqca güclüdür. Kosovodan başqa, Serbiyanın və Bosniya-Herseqovinanın bütün qonşu ölkələri NATO-nun üzvüdür. Bundan əlavə, Kosovoda ABŞ-nin ən böyük hərbi bazası – Camp Bondsteel – yerləşir.

25 apel – 1 may 2025-ci il **"VEÇERNİY TBİLİSİ"**

## Uçmuş bənd may ayının sonuna kimi bərpa olunacaq

Tbilisidə Mtkvari çayının sol sahilinin çökmüş yamacının və yol infrastrukturunun bərpası mayın sonunadək başa çatdırılacaq. Bu barədə jurnalistlərə Tbilisi meri Kaxa Kaladze məlumat verib.

Onun sözlərinə görə, artıq ərazidə hazırlıq işləri başa çatıb və hazırda geoloqlar hansı növ istinad divarına ehtiyac olduğunu müəyyən etmək üçün araşdırma aparırlar.

"Suyun bolluğu müəyyən problem yaradır. Yazda Mtkvaridə suyun səviyyəsi daha yüksək olur ki, bu da işi müəyyən dərəcədə çətinləşdirir", - deyə Kaladze bildirib.

Bundan əvvəl mətbuatda bərpa işlərinin 7 milyon lariyə başa gələcəyi barədə məlumat yayılıb.

Aprelin əvvəlində Didube ərazisində bəndin bir hissəsində iri çatlar əmələ gəlib. Aprelin 7-də meriya təcili təmirə ehtiyac olduğunu bildirib və hərəkəti bir zolaqla məhdudlaşdırıb. Ertəsi gün yamac piyada səkisi və yolun bir hissəsi ilə birlikdə uçub.

5 may 2025-ci il **"REZONANS"**

## Gürcüstan Texniki Universitetində beynəlxalq "ABET" ekspert-məsləhətçi qrupu ilə yekun görüş keçirilib (ixtisarla)

Gürcüstan Texniki Universitetində Mühəndislik və Texnologiya üzrə Amerika Akkreditasiya Şurasının (ABET) ekspert qrupu ilə yekun görüş keçirilib. Görüşdə amerikalı mütəxəssislər ABET akkreditasiyasını almaq istəyən bir neçə gürcü və ingilisdilli bakalavr təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçmə hazırlığı barədə rəy təqdim ediblər. Bu barədə Gürcüstan Texniki Universiteti məlumat yayıb.

GTU-nun məlumatına görə, yekun iclasdan əvvəl rektor, akademik David Qurgenidze "ABET" qrupu ilə görüşüb və amerikalı ekspert məsləhətçiləri ilə birlikdə Gürcüstan Texniki Universitetinin "ABET" akkreditasiyasının alınması istiqamətində gördüyü işləri nəzərdən keçirib və gözlənilən perspektivləri müzakirə edib.

Beynəlxalq "ABET" akkreditasiyasını əldə etmək üçün Gürcüstan Texniki Universiteti eyni vaxtda beş gürcü və ingilisdilli bakalavr proqramını hazırlayır: Energetika fakültəsinin "Elektrik və elektron mühəndisliyi", İnşaat fakültəsinin "İnşaat mühəndisliyi", "Kompüter mühəndisliyi", "Kompüter elmləri" və "İnşaat Mühəndisliyi Sistemləri".

Mühəndislik və Texnologiya üzrə Amerika Akkreditasiya Şurası (ABET) mühəndislik, mühəndislik texnologiyaları, tətbiqi elmlər, təbiət elmləri və kompüter elmləri üzrə təhsilin keyfiyyətinin monitorinqi, qiymətləndirilməsi və sertifikatlaşdırılmasına cavabdeh olan dünyanın aparıcı beynəlxalq təşkilatıdır.

SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli 2 may tarixli sayımızda)*



## Armud

Latınca "pyrus" adlanan armud gülçiçəyikimilər fəsiləsinə aid ağac və həmin ağacın meyvəsidir. Armud ağacının hündürlüyü 30 m-dək olur, gövdəsi və budaqları boz və ya qəhvəyi qabıqla örtülüdür, yarpaqları sadə, bəzi hallarda dilimli, yaxud lələkvari yarılmışdır. Çiçəkləri ikicinslidir və ağ və ya çəhrayı rəngə malikdir. Meyvələri əsasən uzunsov formalı, yaşıl vəya sarıdır.

Bəşəriyyət qədim zamanlardan armud istehlak edib. Ehtimal edilir ki, armud 1000 il qabaq Qədim Yunanistanda, eləcə də İranda və Roma İmperiyasında becərilib. Armudun adı Homerin "Odisseya"sında (XXIV mahnı) qeyd edilib. Romalılara armudun 38 növü məlum olub. Roma tarixçisi Böyük Plini armudun çox da dadlı olmadığını, ona görə də kasıb təbəqə tərəfindən istehlak edildiyini bildirib. Amma buna baxmayaraq, Roma və Yunan mədəniyyətində armud müqəddəs hesab edilib. Orta əsrlərdə artıq 300-ə yaxın armud növü becərilib. Almaniyada yaşı 50-dən yuxarı olan armud ağacı müqəddəs sayılıb. Hesab olunur ki, becərilən armud növlərinin mənşəyi bir sıra növlərin hibridləşməsi nəticəsində əldə edilib.

Armuddan müxtəlif desertlər, kompotlar və qənnadi məmulatlar hazırlanır. Mətbəximizdə armuddan çay süfrəsinə ləzzət qatan mürəbbə də hazırlanır.

**Armud insan organizmi üçün olduqca faydalı meyvədir.** Armud vitaminlər, minerallar, antioksidantlar və liflər ilə olduqca zəngindir. Armudun tərkibində A, E, K, C, B1, B2, B3, B4, B5, B6, B9 vitaminləri, kalsium, maqnesium, natrium, kalium, fosfor, dəmir, sink, yod elementləri, üzvi turşular, efir yağları, flavonoidlər və fitosidlər var. Alma ilə müqayisədə armudda daha çox lif və zülallar var. Ən çox vitamin və antioksidanlar meyvənin qabığındadır. Onlardan biri olan kvertsetin Altsheimer xəstəliyinin inkişaf riskini azaldır. Armud almadan daha şirin olsa da, kalorisi azdır və tərkibindəki fruktoza qlükozadan daha çoxdur. Deməli, parçalanma üçün insulin tələb olunmur, bu da qanda şəkərin artmasına səbəb olmur. Ona görə də meyvə mədəaltı vəzi xəstəlikləri olan insanlar üçün, pəhriz qidalanması və şəkərli diabet xəstələrinin pəhrizi üçün tövsiyə olunur. Tədqiqatlar məhsulun xolesterol səviyyəsini azaltdığını və həzm prosesini asanlaşdırdığını göstərir. Armud C vitamini



ilə zəngindir və viruslar və payız soyuqdəymələri mövsümündə sağlamlığı dəstəkləmək üçün əladır, efir yağları isə orqanizmin müdafiəsini artırır və iltihab əleyhinə təsir göstərir. Yüksək kalium tərkibinə görə armud ürək problemləri və yuxusuzluq üçün faydalıdır. Məhsulun tərkibindəki üzvi turşular maddələr mübadiləsini sürətləndirir, böyrək və qaraciyərin fəaliyyətini stimullaşdırır.

**Armudun insan organizmi üçün zərərləri.** Armudun tərkibində mədə və bağırsaqların selikli qişasını qıcıqlandıran meyvə turşuları və qaba lif var. Buna görə də, qastrit və ya mədə xorası xəstəliyinin kəskinləşməsi zamanı vəziyyəti ağırlaşdırmamaq üçün onlardan istifadə etməkdən çəkinmək daha yaxşıdır. Acqarına yeyilən meyvələr ağırlıq hissi yarada bilər.

# MAKVALA QONAŞVİLİ



Makvala Qonaşvili TDU-nun jurnalistika fakültəsində təhsil alıb. 20-dən artıq kitab müəllifidir. Gürcüstan Yazıçılar Birliyinin rəhbəridir. Qalaktion Tabidze adına ədəbiyyat mükafatı alıb. Şeirlərini dilimizə Səlim Babullaoğlu, İmir Məmmədli, Rafiq Hümmət, Mahir N.Qarayev, Hidayət, Əjdər Ol tərcümə edib. Bu dəfə Makvala xanımın şeirlərini Şəfiqə Şəfanın tərcüməsində "Gürcüstan" qəzetinin dəyərli oxucularına təqdim edirik.

### Yenə inanacam

Yüz yol xain çıxdınız,
Sizə yenə inandım.
Ölənədək, amandı,
Mənə çiçək almayın.

Axirət qorxusundan
Mən yalan danışmıram,
Şeirlərdə – özümü,
Övladlarda – anamı
Gəzirəm, axtarıram.

Gecədə ehtirası,
Səndə isə gecəni
Arayacam, tapacam.
Bu narahat qayğıdan
Axır, dəli olacam,
Ya da ki, yerli-dibli
Tükənib məhv olacam.

Qoşanın vəhdətinə
Nədən sevgi deyirlər?!
Məni yaradan tanrı
Özünə bənzədibsə,
Simam niyə dəyişər?
Cəfasını da gördüm,
Sövqü-səfasını da.
Dünyanın hər üzünü,
Hər halını da gördüm.
Lakin görəmmədiyim
Mütləq gəlib çıxacaq,
Qərənfil yağışıtək
Üzərimə yağacaq.
Onunla görüşədək
Özümü aldadacam.
Yüz yol xain çıxsa da,
Yenə də inanacam.

### QORXURAM

Qorxuram mən səni itirəm bir gün,
Şübhələr, sezgilər öldürür məni.
Yubanma, əzizim, götür yay-oxu,
Gəl bir maral kimi, nişan al məni.

Səpələ yollara şeirlərimi
Sər günəş altına göz yaşlarımı.
Qalxıb ağac kimi sümüklərimdən
Kölgəmi üstünə sənin sərərəm.

Mənim ömrüm-günüm nağıla döndü,
Nağılla başladı, nağılla söndü.
Təkrar bu dünyaya əgər gəlsəydim,
Yenə bu əzablı yolu seçərdim.

Səni sevdiyimçün mən çox xoşbəxtəm,
Yaxşını-yamanı tanıtdın mənə.
Yaradan neyləsə razı olaram
Bircə səni itirməkdən qorxuram.

### TƏNHA

Qadının saçlarında
Siqar qoxusu vardı,
Tüstüyə bənzər ruhu
Gözəl dodaqlarından
Oğrun-oğrun çıxırdı.
Xəyalən yaratdığı
Ağ atlı şahzadəsi
Hələ də gecikirdi.
Soba yanında pişik
Ləzzətlə gərnəşirdi.
Ürəksə yetim qızın
Saray pilləkənində
Düşmüş başmağı kimi
Qaragüruh içində
Tək-tənha qaldığını
Lap yaxşı hiss edirdi.

### QOŞA RUHLAR

*(Həyat yoldaşım Meraba)*

Tale məni heç vaxt rahat buraxmır,
Sığınmağa sənin köksünü seçdim.
Sənə görə təkcə canımdan deyil,
Sözlərimdən, şeirlərimdən keçdim.

Sevgimin sən adlı hədsizliyindən
İnan ki, özüm də əzab çəkirdim.
Sənə ümid olub çökür axşamlar,
Səhər sənə görə çıxır günəşim.

İndi bu dünyada qoşa dolaşan,
Dibsiz burulğanda itən ruhumuz
Min il əvvəllər də qoşa idilər,
Əsrlər keçsə də budur sonumuz.

Mən sənin ay kimi sirli qəlbinin
Sevirəm təlaşlı, həssas halını.
Mənim yağışlarım içinə yağır,
Sənin şimşəklərin məndən çaxnaşır.

Bilsəm nahamardır həyat yolların
Əsla bu yollarda tək qoymaram mən.
Öz soyun, kökünlə, qan yaddaşınla
Məni ölməz edən yenə də sənsən.

Özümü bəzədim şeirlə, sözlə
Sayəndə qazandım əbədiliyi.
Bizi bədnəzərdən qoru, İlahi,
Yerdə də, göydə də ayırma bizi.

### SƏNƏ QƏDƏR

Mən sənin röyanda səksəkəliydim,
Sən mənim röyama nə şəstlə gəldin?...
Aşkarda ağrıya dözməyə nə var!
Yuxuda ağrımı necə səngidim?

Əziyyət verirəm sənə röyamda,
Ayıqkən incitmək istəmirəm mən,
Xəyalımda belə xain çıxmaram,
Səni torpaq kimi susub gözlərəm,

Baharda səninçün çiçəklənərəm.
Sən ki dağlar aşıb gələn buludsan,
Səni buralara tanrı göndərib
Mənə bənd olmusan, mənə yağırsan.
Bizdən o tərəfdə nə var görəsən?!
Orda da axtarıb tapışarıq biz.
Sonra çiçək kimi, yağışlar kimi
Yenə bu dünyaya qayıdarıq biz.

Qoy qadın arzusu sönsün qəlbimdə.
Yeri inkar edək, göyə sığınaq,
Yadlaşıb dünyanın gerçək üzünə
Sonra ulduz kimi yenə doğulaq.

Günəş ehtirasla oyadır məni,
Əllərim cismimi tutub gizləyir
Ehmalca çıxıram yuxularımdan.
Dünya açıq qapı – aralı qalıb
Həyatın bu üzü bizi gözləyir.

### YAĞIŞ İZLƏRİ SİLİR

Məni unutmağa cəhd etmə qəti,
Onsuz da bilirəm fikrin məndədir.
İncimə əzizim
Nolsun, mən eynən
dəyişkən, dəlisov mart havasıyam.
Üz qoyaq bu tozlu, nahamar yola,
Sən də uşaq kimi küsəyən olma,
Gəl gedək, yoxsa bax yağış yağacaq
Bütün izləri də silib yuyacaq.

### ÖZÜNƏ QAYIDIŞ

Daha bu halıma dözə bilmirəm,
Mən öz həyatımı yaşamıram ki...
Nurun gəlişini hiss eləyirəm,
Barmaqlarım donur, tənim üyüşür.
Baxıram kədərin şüşə gözünə
Bu səbir, bu dözüm belə gedərsə,
Sonuma çıxacaq, yıxacaq məni.
Əgər əvvəl-axır uduzacamsa.
Niyə öz-özümə düşmənəm axı?
Niyə qarşı çıxır, savaşıram ki?!
Hələ də qəlbimdə üsyan eləyir.
Yasaqlar, adətlər, olar-olmazlar...
İlahi, ruhum da, qəlbim də artıq
Büründü dumana, bələndi çənə
Boğula-boğula göz yaşlarımda
Yavaş-yavaş qayıdıram özümə.

**Tərcümə etdi: Şəfiqə Şəfa**

# DAİM XALQLA BİRGƏ (10 MAY YUSİF YUSİFLİNİN DOĞUM GÜNÜDÜR)



Ədəbi əsərlərdə, hər bir yazıçının həyata real baxışı olanda, xəlqilik yaradıcılığın zirvə qatına yüksələndə, həmin yazıçı öz əsərləri ilə tarixlər boyu xalqla birgə addımlayır.

Borçalı ədəbi mühitində ədəbiyyatımızı işıqlandırmış, xalqın dərd-sərini dərin poetik və fəlsəfi çalarları ilə nurlandıran, poema, qəzəl, müxəmməs, qoşmaları ilə şöhrət qazanmış Yusif Yusifli öz qələmi ilə ədəbiyyat tariximizdə dərin iz qoyub getmişdir. Yusif müəllimin ölçüyəgəlməz ən böyük xidməti "Gürcüstan azərbaycanlılarının ədəbiyyatı tarixi" (3 cilddə) əsəridir. Bu 3 – cildlik ədəbiyyat tarixi ona şöhrət qazandırmışdır. Yüksək erudik səviyyəli insan olan Yusif Yusifli Azərbaycan ədəbiyyatının Borçalı qolunu dərin biliyi ilə tədqiq etmişdir. Tarixin dolaylarında itib - batmış yaradıcı adamlara yenidən həyat vermişdir. Onun bundan başqa yazdığı nəzm əsərləri müasir həyatımızın güzgüsünə çevrilmişdir.

Yusif Yusifli qələmini həm də publisistika sahəsində də sınamışdır. O, yazılarında göstərmişdir ki, qonşu xalqlar daim mehriban yaşamalıdırlar. Qardaş gürcü xalqı ilə Azərbaycan xalqının dostluğuna aid əsərləri iki xalqın qədim dostluğuna həsr edilmişdir. O, həmişə ara qatan üçüncü əlləri kəsmək lazım gəldiyini şeirlərində göstərmişdir. Yusif müəllim dostluq carçısı idi. Yusif müəllim həm də böyük ictimai xadim idi. Onun həyatı mübarizələrdə keçmişdir. Yaradıcılığında olduğu kimi, yaşadığı həyatda da mübariz insan olmuşdur. O, həmişə xalqla birgə addımlamağı bacarmışdır.

Yusif müəllim öz xalqını isti ürəklə sevirdi. Həyatda haqsızlığın düşməni idi. Haqqı nahaqqa qurban verməzdi. Ömrü boyu düzgünlüyün tərəfdarı olmuşdur. Onun şəninə müasirləri çoxlu sayda şeirlər və poemalar həsr etmişlər. Mətbuat vurğunu idi. Qəzet və jurnalların daimi abunəçisi idi. Yazıları Gürcüstanda çıxan qəzet və dərgilərdə vaxtaşırı çap olunardı. O yazılarında faydalı fikirlər irəli sürərdi, tarixi keçmişimizdən yazardı. Həm də gözəl pedaqoq idi. Şagirdləri ilə daim əlaqə saxlardı. İşlədiyi məktəbdə muzeylər təşkil etmişdir ki, bu muzeylər yenə də fəaliyyətini davam etdirir.

Mənimlə Yusif müəllim arasında böyük qarşılıqlı hörmət vardı. Yaradıcılığımı daim izləyərdi. Məni yazmağa ruhlandırardı. Deyərdi ki, sən Borçalının Cəlil Məmmədquluzadəsisən.

Bir sözlə, daim xalqla birgə addımlayan Yusif müəllim haqqında çox-çox yazılar yazılmışdır. Mən də bu kiçik məqaləmdə ürək sözlərimi onun doğum günündə oxucularla bölüşmək istədim.

Yusif müəllim xalqın qəlbində əbədi yaşayacaqdır.

**Bahəddin Oruclu,**
**yazıçı-publisist**

# 10 MAY - LİDERƏ SƏDAQƏTİN, GƏNCLİYƏ İNAMIN VƏ GƏLƏCƏYƏ ÜMİDİN TARİXİ

Hər il 10 may tarixində Azərbaycan xalqı böyük qürur və ehtiramla ümummilli lider Heydər Əliyevin doğum gününü qeyd edir. Bu gün Ulu Öndərin gələcəyə qoyduğu möhkəm təməllərin – xüsusən də gənclərə olan diqqət və qayğının təntənəsidir.

Heydər Əliyev Azərbaycanın sabahını gənclərin simasında görən və bu istiqamətdə ardıcıl siyasət aparan bir dövlət xadimi idi. Onun "Gənclər bizim gələcəyimizdir" fikri bu gün də öz aktuallığını qoruyur. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1996-cı ildə Gənclər Gününün təsis olunması, minlərlə gəncin xaricdə təhsil alması üçün yaradılan imkanlar, gənclərin dövlət idarəçiliyinə cəlb olunması onun həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən idi.

Heydər Əliyevin müəyyən etdiyi strateji xəttin davamı olaraq, bu gün Gürcüstanda yaşayan azərbaycanlı gənclər təhsil, mədəniyyət və ictimai fəallıq sahələrində önəmli uğurlar qazanır, ölkələrimiz arasında dostluq körpülərini möhkəmləndirirlər.



Heydər Əliyev Gürcüstanla münasibətlərə hər zaman xüsusi önəm verirdi. Onun təşəbbüsü və dəstəyi ilə iki qonşu xalq arasında dostluq, qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri əsasında möhkəm siyasi və iqtisadi əlaqələr formalaşıb. Bu münasibətlər bu gün də yüksək səviyyədə davam etdirilir.

10 may – təkcə bir tarix deyil. Bu, liderə sədaqətin, gəncliyə inamın və gələcəyə ümidin tarixidir.

**Arzu Əliyeva,**
**ingilis dili müəllimi.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**9 may**

•1502— Kristofer Kolumb Amerika qitəsinə dördüncü səyahətinə başlayıb.
•1945 — Faşizm üzərində Qələbə Günü (İkinci Dünya Müharibəsi başa çatıb)– Sovet İttifaqı və müttəfiqləri Almaniya üzərində qələbə çalıb. Bu tarix bir çox ölkələrdə, Qələbə Günü kimi qeyd olunur.
•1983—Nino Aleksi-Mesxişvili, gürcü aktrisası, vəfat edib.
•Belarus, Gürcüstan, Azərbaycan, İsrail, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Serbiya, Tacikistan, Türkmənistan —Qələbə Günü

**10 may**

•1871—Frankfurt Sülhü–Fransa - Prussiya müharibəsinin yekunu olaraq, Fransa məğlub oldu, Alsas və Lotaringiya Prussiyaya (Almaniyaya) verilib.
•1923— **Heydər Əliyev anadan olmuşdur**–Naxçıvanda doğulan Heydər Əliyev müstəqil Azərbaycanın qurulmasında və möhkəmlənməsində mühüm rol oynayıb. 1969–1982 və 1993–2003-cü illərdə ölkəyə rəhbərlik edib.
•1961—Fikrət Adıgözəlli, Azərbaycan jurnalisti və idman şərhçisi, anadan olub.
•Meksika— Analar Günü.
• Maldiv adaları — Uşaqlar Günü

**11 may**

•330—Konstantinopol şəhərinin rəsmi əsasının qoyulması–Roma imperatoru I Konstantin Bizans şəhərini yenidən quraraq onu "Yeni Roma" adlandırıb. Şəhər sonradan Konstantinopol, bu gün isə İstanbul adlanır.
•1867— Lüksemburq müstəqil olub.
•1918— Şimali Qafqaz Dağlı Respublikası yaradılıb.
•1924— Mercedes-Benz Gottlieb Daimler və Karl Benz şirkətlərinin birləşməsi nəticəsində yaranıb.
•1935 — Maqsud İbrahimbəyov, Azərbaycan yazıçısı və dramaturqu, anadan olub.
•1937— Qiorqi Şenqelaia, gürcü kinorejissor, anadan olub.

**12 may**

•1926—Əbdürrəhim bəy Haqverdiyev vəfat edib. Azərbaycan ədəbiyyatında realizmin inkişafında böyük rolu olan yazıçı və dramaturq. "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar" kimi əsərlərin müəllifidir.
•1952—Nodar Şoşitaşvili, gürcü tarixçi və etnoqraf, anadan olub.
•1994—Qarabağ müharibəsində atəşkəs – Birinci Qarabağ müharibəsində Azərbaycan, Ermənistan və vasitəçi kimi Rusiya ilə birlikdə Bişkek Protokolu imzalayıb. Bu sənəd müharibənin 1994-cü ilə qədər olan aktiv döyüş mərhələsini dayandırıb.
•1999— Gürcü alpinistlər Everest dağına qalxıblar.

**13 may**

•1830—Ekvador (Cənubi Amerikada dövlət) müstəqil olub.
•1836—Rusiyada ilk dəmir yolu xəttinin, Sankt-Peterburq-Tsarskoye Selo-Pavlovsk xəttinin tikintisinə başlanıb.
•1913— İqor Sikorski dörd mühərrikli təyyarəni idarə edən ilk şəxs olub.
•1981—Dinamo Tbilisi Avropa Kubok Qalibləri Kubokunun qalibi olub.
•1819 — XII David, Gürcüstan şahzadəsi, vəfat edib.
•1982 — Qara Qarayev, Azərbaycan bəstəkarı, vəfat edib.

**14 may**

•1796—I Yekaterina (Rusiya imperatoru) vəfat edib. – Rusiya tarixində əhəmiyyətli rol oynamış qadın liderlərdən biri. Onun dövründə Rusiya ərazisi genişlənib.
•1796—Edvard Cenner təbii çiçək xəstəliyinin ilk peyvəndini həyata keçirib.
•1922— Tbilisi Rəssamlıq Akademiyası açılıb.
•1948—İsrailin müstəqillik elan olunması – Təl-Əvivdə Ben-Qurion İsrail dövlətinin yaradıldığını elan edib. Ərəb-İsrail müharibəsi başlayıb.
•2014—Lili İoseliani, gürcü rejissor, vəfat edib.

**15 may**

•1893— **Konstantin Qamsaxurdia - gürcü yazıçısı, anadan olub.**
•1935— Moskva metrosu açılıb.
•1955—**Varşava Müqaviləsi imzalanıb – SSRİ və Şərqi Avropa ölkələri NATO-ya cavab olaraq bu hərbi ittifaqı yaratdılar. 1991-ci ildə dağılıb.**
•1988—Səkkizillik müharibədən sonra Sovet qoşunlarının Əfqanıstandan tədricən çıxarılması başlanıb.
•1992 —Azərbaycan BMT-yə üzv olub – Azərbaycanın beynəlxalq arenaya rəsmi çıxışı və müstəqil dövlət kimi tanınmasının əsas addımlarından biri olub.
•Beynəlxalq Ailələr Günü

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## HEYDƏR ƏLİYEV



***Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində dünyaya gəlmişdir. Ailəsi zəhmətkeş və vətənpərvər insanlar olmuşdur. Gənc yaşlarından elmə, nizam-intizama və vətən sevgisinə bağlı olan Heydər Əliyev təhsilini əvvəlcə Naxçıvanda, sonra isə Bakıdakı sənaye texnikumunda davam etdirmişdir.***

Heydər Əliyev 1941-1944-cü illərdə əvvəlcə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, sonra isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləyib.

1944-cü ildə təhlükəsizlik orqanlarında çalışmağa başlayan Heydər Əliyev Moskvada ali təhsil alaraq xüsusi xidmət sahəsində peşəkar mütəxəssis olmuşdur.

Heydər Əliyev 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutub.

1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş və uzun illər Azərbaycan SSR-in rəhbəri olmuşdur. Onun rəhbərliyi dövründə sənaye, kənd təsərrüfatı, təhsil və mədəniyyət sahələrində ciddi irəliləyişlər əldə olunmuşdur.

Sovet İttifaqı miqyasında da yüksək vəzifələrdə çalışan Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunmuşdur. Bu, Azərbaycanın nümayəndəsinin ilk dəfə Sovet rəhbərliyində bu qədər yüksək səviyyəyə çatması idi.

1990-cı ildə Azərbaycana qayıdan Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri kimi fəaliyyətə başlayıb. 1993-cü ildə isə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdıb və Azərbaycan Respublikasının Prezidenti seçilib. O, ölkədə siyasi sabitliyi bərpa etdi, iqtisadi islahatlara başladı və "Əsrin müqaviləsi" kimi tanınan neft sazişi ilə Azərbaycanın gələcəyini formalaşdırdı.

Heydər Əliyevin ailəsi də daim diqqət mərkəzində olub. O, 1948-ci ildə Zərifə xanım Əliyeva ilə ailə həyatı qurmuşdur. Zərifə Əliyeva tanınmış alim, oftalmoloq və ictimai xadim idi. Bu nikahdan iki övlad dünyaya gəlmişdir: Sevil Əliyeva və İlham Əliyev. İlham Əliyev atasının siyasi kursunu davam etdirərək 2003-cü ildən Azərbaycan Respublikasının Prezidentidir.

Heydər Əliyev 2003-cü il dekabrın 12-də vəfat etmişdir. Onun vəfatı Azərbaycan xalqı üçün böyük itkidir, lakin qoyduğu irs bu gün də yaşayır. Onun adı Bakıda və ölkənin bir çox bölgələrində əbədiləşdirilmiş, heykəllər, muzeylər və təhsil müəssisələri yaradılmışdır.

Heydər Əliyev təkcə bir siyasi lider deyil, həm də Azərbaycan xalqının milli ruhunu və dövlətçilik ənənələrini formalaşdırmış dahi şəxsiyyətdir. Onun fəaliyyəti və ideyaları gələcək nəsillər üçün örnəkdir. Heydər Əliyev tarix yazan liderdir.

## KONSTANTİN QAMSAXURDİA



***XX əsrin görkəmli gürcü yazıçısı, ədəbiyyatşünası və ictimai xadimi olmuşdur. Gürcüstanın ədəbiyyat tarixinə mühüm töhfələr verən Konstantin həm də müasir gürcü nəsrinin banilərindən biri sayılır.***

Konstantin Qamsaxurdia 1893-cü il mayın 15-də Gürcüstanın Abxaziya bölgəsində, Abaşa kəndində Simon Qamsaxurdia və Elizabet Topuradzenin ailəsində doğulub. Konstantin Simonun axırıncı, 9-cu oğlu idi. Əlifbanı kəndin klisə məktəbində öyrənib. Sonra atası oğulları Konstantin və Venonu Senakinin kilsə məktəbinə qoyub. Konstantin 1904-cü ildə məktəbi bitirib. Bundan sonra atası Konstantini qardaşı ilə birlikdə Kutaisi Zadəgan Gimnazyasına yerləşdirib, gimnaziyada oxuduğu illərdə o kəndi Abaşaya yalnız tətillərdə gedirdi. Konstantin 1911-ci ildə Kutaisi Zadəgan gimnaziyasını bitirib. O Peterburq, Königsberq, Leypsiq, Münhen, Berlin universitetlərində təhsil alıb. 1913-cü ilin yazında ölkəsinə müvəqqəti olaraq qayıdıb. Bu dəfə ona, Kita Abaşidze tərəfindən qara daş sənayesi təqaüdü təyin edilib və 1913-cü ilin oktyabrından 1914-cü ilin mart ayına qədər Moskva Universitetinin tarix və filologiya fakültəsində təhsil alıb. 1914-cü il yay fəslində təhsilini davam etdirmək üçün Almaniyaya yollanıb. Almaniyada keçən vaxtı ərzində yaradıcılıq fəaliyyəti ilə məşğul olmağa başlayıb.

O, Almaniyada təhsil alarkən Qərbi Avropa ədəbiyyatı və fəlsəfəsi ilə yaxından tanış olmuş, bu biliklər onun yaradıcılığına dərin təsir göstərmişdir. Onun ilk əsərlərində simvolizm və modernizm cərəyanlarının izlərini görmək mümkündür. Lakin sonrakı illərdə o, realist üsluba üstünlük vermiş və tarixi mövzularda əhəmiyyətli romanlar yazmışdır. Konstantin Qamsaxurdianın ən məşhur əsərlərindən biri "Davit Ağmaşenebeli" (David Qurucu) haqqında olan tarixi romandır. Bu əsərdə o, Gürcüstanın orta əsr tarixində mühüm rol oynamış kral Davitin obrazını dərin psixoloji və fəlsəfi təhlillə təqdim edir. Onun digər mühüm əsəri "Qanlı Məzuniyyət" və "Səbir Dağı" kimi romanlarıdır.

Sovet dövründə Qamsaxurdia dəfələrlə siyasi təzyiqlərə məruz qalmış, əsərləri senzura ilə üzləşmişdir. Buna baxmayaraq, o, yaradıcılığını dayandırmamış və gürcü mədəniyyətinin inkişafı üçün çalışmışdır. O, həm də bir sıra tərcümə işləri ilə məşğul olmuş, Avropa klassiklərinin gürcü dilinə çevrilməsində mühüm rol oynamışdır.

Konstantin Qamsaxurdianın oğlu Zviad Qamsaxurdia, 1991-ci ildə müstəqil Gürcüstanın ilk prezidenti olmuşdur. Zviad atasının milli düşüncələrindən təsirlənmiş və onun ideyalarını siyasi müstəviyə daşımışdır. Konstantin Qamsaxurdia 1975-ci ildə vəfat etmişdir. Onun əsərləri bu gün də Gürcüstan məktəblərində və ali təhsil müəssisələrində öyrədilir və ölkənin ədəbi irsinin ayrılmaz hissəsidir.

## VARŞAVA MÜQAVİLƏSİ

XX əsrin ortaları... Dünya iki hissəyə bölünmüşdü – bir tərəfdə kapitalizm və onun bayraqdarı olan ABŞ, digər tərəfdə isə sosializm və onun sütunu olan Sovet İttifaqı. Bu mübarizə yalnız ideologiya üzərində deyildi, o, hərbi ittifaqlar, diplomatik strategiyalar və qlobal nüfuz uğrunda açıq yarış idi. Belə bir dövrdə – 1955-ci il mayın 14-də Polşanın paytaxtı Varşavada tarixi bir sənəd imzalandı. Bu sənədin adı Varşava Müqaviləsi idi.

Müqavilə Albaniya, Almaniya Demokratik Respublikası, Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Polşa, Rumıniya və SSRİ arasında imzalanmış və 5 iyun 1955-ci ildə qüvvəyə minmişdir.




Varşava Müqaviləsi – sadəcə kağız üzərində bir razılaşma deyildi. O, Şərq Blokunun birliyi, güc simvolu və təhlükəsizlik zəmanəti kimi yaradıldı. NATO-nun 1949-cu ildə qurulmasından sonra Sovet İttifaqı başa düşdü ki, öz nüfuzu altındakı ölkələr üçün hərbi sipər lazımdır. Beləcə, sosialist ölkələri bir araya gətirildi və qarşılıqlı müdafiə prinsiplərinə əsaslanan hərbi-siyasi ittifaq formalaşdı.

Varşava Müqaviləsi öz fəaliyyəti dövründə təkcə siyasi deyil, həm də hərbi gücə çevrildi. Onun çərçivəsində birgə hərbi təlimlər keçirilir, zabitlər SSRİ-də təhsil alır, qərargahlar isə Moskvadan idarə olunurdu. Praktik olaraq, SSRİ bu müqavilə vasitəsilə Şərqi Avropa üzərində nəzarətini daha da möhkəmləndirdi. Məsələn, 1956-cı ildə Macarıstandakı üsyan, 1968-ci ildə Çexoslovakiyadakı "Praqa baharı" Varşava qoşunlarının müdaxiləsi ilə yatırıldı.

Ancaq zaman dəyişirdi. 1980-ci illərin sonlarında SSRİ zəifləməyə, sosialist rejimlər bir-bir süqut etməyə başladı. Xalqlar artıq sərbəstlik, demokratiya və müstəqil qərar vermək hüququ tələb edirdilər. Nəhayət, 1991-ci ilin iyul ayında, Varşava Müqaviləsi rəsmi olaraq ləğv edildi. Bu, təkcə bir təşkilatın deyil, bir dövrün sonu idi.

Varşava Müqaviləsi preambula və 11 maddədən ibarət idi. Üzv ölkələr bir-birinin müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməyi, bir-birlərinin daxili işlərinə qarışmamağı öhdələrinə götürürdülər. VMT-nin sırf müdafiə xarakteri daşıdığıbəyan edilbib. İştirakçı dövlətlər BMT-nin Nizamnaməsinə uyğun olaraq beynəlxalq münasibətlərdə hərbi güc tətbiq etmək təhlükəsindən çəkinməli, mübahisələri dinc vasitələrlə həll etməli, ümumi maraqlara toxunan bütün vacib məsələlər üzrə məsləhətləşməli idilər. Mətndə sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində bütün beynəlxalq fəaliyyətlərdə iştirak etməyə, silahların azaldılması və kütləvi qırğın silahlarının qadağan edilməsi üçün səmərəli tədbirlərin görülməsinə nail olmağa hazır olduğu da vurğulanıb. Avropada bir və ya bir neçə VMT üzvünə silahlı hücum olduğu halda ordu da daxil olmaqla, bütün vasitələrlə dərhal yardım göstərilməsi nəzərdə tutulurdu. Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə rus, polyak, çex və alman dillərində bir nüsxədə tərtib edilmişdi.

Varşava Müqaviləsi XX əsr tarixinə soyuq müharibənin simvollarından biri kimi düşdü. O, birliyin arxasında gizlənən siyasi nəzarəti, müttəfiqlik arxasında dayanan güc siyasətini təmsil edirdi. Bu gün onun fəaliyyəti tarix dərsliklərində öyrədilir, lakin yaratdığı təsir hələ də beynəlxalq münasibətlərdə hiss olunur.

# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"S A K A R T V E L O"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




İDMAN — İDMAN

## ŞAHMAT TURNİRİ DAVAM EDİR




***26 aprel 2025-ci il tarixində "İnkişaf və Təhsil Mərkəzi"nin təşkilatçılığı və "SOCAR"ın dəstəyi ilə "Tea House"da "Marneuli Open 2025" şahmat turnirinə start verilib.*** Turnirdə 61 nəfər uşaq və yeniyetmə iştirak edir. Yarışda iştirak edən "Gürcüstan Şahmat Federasiyası"nın vitse-prezidenti Qiorqi Qiorqadze və "Gürcüstan Azərbaycalılarının İnteqrasiya Mərkəzi"nin direktoru Murad Muradov çıxış edərək gənc şahmatçılara uğurlar arzu ediblər. İsveçrə sistemi üzrə keçirilən yarışda 12 yaş kateqoriyasında Timur Kələyev 6 xalla I yerə (Marneuli, "Tea House"), Ayhan Əsgərov 6 xalla II yerə (Marneuli, "Tea House") və Murad Nəbiyev 6 xalla III yerə (Marneuli, "GAİM") layiq görülüblər. 16 yaş kateqoriyasında isə Tahir Məmmədov 7 xalla I yerə (Qaraçöp), Əli Əliyev 6.5 xalla II yerə (Marneuli, "Tea House"), Bəhlül Quliyev 6 xalla III yerə (Qaraçöp) layiq görülüblər. Qaliblərə kubok və medallar təqdim olunub. Yarışın sonunda 24-25 aprel tarixində Rustavi şəhərində Kvemo Kartli Şahmat Federasiyasının Rustavi Meriyasının dəstəyi ilə keçirdiyi Kvemo Kartli Şahmat Çempionatında qalib olan çahmatçılara, Gürcüstan Şahmat Federasiyasının vitse-prezidenti Qiorqi Qiorqadze tərəfindən medal, kubok və sertifikatlar təqdim olunub. Turnir Cahandar Bayramov, Tacir Allahverdiyev, Turac Həsənov, Emil Allahverdiyev və Qasım Əliyevin hakimliyi ilə keçirilir. Turnir davam edir.

UNUDULMAYANLAR

## NECƏ DEYƏK Kİ...

*Foto E.Şahvələdindir.*



Bir yaz günündə dünyaya gəlmişdi. Hər tərəf behişt ətirli gül-çiçək. Sonradan bu gün İttifaq üzrə mətbuat günü adlanacaqdı – "Pravda"nın nəşr olunduğu günün hesabına. Lakin onun öz "həqiqəti" olacaqdı - Əfəndi həqiqəti – qərəzkarlıqdan, kinlilikdən, etibarsızlıqdan uzaq – xeyirxahlıq, təvazökarlıq, etimad. 42 il qələm tutmaq öyrəndik ondan "Sovet Gürcüstanı"nda – "Gürcüstan"da. Redaktor barmağı dəqiq işləyirdi, redaktor sözü hədəfə dəyirdi-sərrast idi redaktor qələmi ehtiyatla tutulurdu – Şəms Təbrizi demiş: "Üç şeyi ehtiyatla götür: qədəmi, cənazəni və qələmi"...

Heç vaxt şaqqanaq çəkib gülməzdi, özü demiş – qımışardı - zəngin daxili intellekti bunu rəva görməzdi...

...Onu gah "jurnalistikamızın aristokratı", gah "jurnalistlik mücəssəməsi", "gah da "qələm kralı" adlandırırdılar. Hər necə adlandırırlarsa adlandırsınlar, o bizim üçün fəxrimiz olan **Süleyman Əfəndi** idi. Tam bütövlüyü və dolğunluğu ilə.

...Yaşasaydı 90 yaşı olacaqdı mayın 5-də. Vəfatından isə 11 il keçəcək iyun ayında.

...Necə deyək ki, o indi aramızda yoxdur?!

Hər qələm götürəndə, hər qəzet-jurnal vərəqləyəndə, hər tutarlı sözə, ifadəyə rast gələndə gözlərimiz önündə canlanır, dilimizdə ruhuna "rəhmət" kəlməsi bitir.

...Əmanətiniz etibarlı əllərdədir, Əfəndi!

Ruhunuz şad olsun!

**P. S.** Ad gününüzü qeyd etmək üçün redaksiyamıza təşrif buyurmuş sizin də tanıdığınız Tbilisi sakini Firdovsi (Füzuli) Adilpaşa oğlu Rüstəmova da xüsusi minnətdarlığımızı bildiririk.

**Binnət**

## GÜRCÜSTAN MƏKTƏBLƏRİNİN ŞAGİRDLƏRİ II TÜRK İNTEQRASİYA OLİMPİADASINDA QALİB OLUBLAR



***Mayın 3-də Bakıda Türk dünyası II Türk İnteqrasiya Olimpiadası (TİO) keçirilib.*** Hədəf Şirkətlər Qrupunun təsisçisi olduğu II Türk İnteqrasiya Olimpiadası türk dövlətləri və milli qurumlarının məktəbliləri arasında təşkil olunub. Olimpiadaya Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, QKTC, Tatarıstan, Krım, Qaraçaylar, Qaqauziya, Çuvaşıstan, Özbəkistan, Bolqarıstan, Başkurdistan, Altay, Tuva, Saxa, Yakutiya, Xakasiya, Qərbi Trakya, Uyğurstan, Güney Azərbaycan, Kərkük türkləri ilə yanaşı, Gürcüstanda fəaliyyət göstərən Azərbaycan dilli məktəblərinin şagirdləri də qatılıb. Olimpiadada iştirak edən Gürcüstandan gələn şagirdlərin hər biri medal qazanıb. Belə ki, 1 nəfər qızıl (Qənbərli Nəzrin Rövşən qızı), 2 nəfər gümüş (Qasımov Muhammed Şaiq oğlu, Qasımova Sibel Tural qızı) və 1 nəfər isə bürünc medalla (Allahyarov Məhəmmədəli Azər oğlu) təltif olunub. Gürcüstan heyətinə Tbilisidə fəaliyyət göstərən Alyans Gənclər Mərkəzinin sədri Leyla Əmrahova rəhbərlik edib. Xatırladaq ki, TİO Fənlərin Dostluğu Olimpiadası (FDO) əsasında yaradılıb. FDO 2009-cu ildən Hədəf Şirkətlər Qrupuna daxil olan "Hədəf Nəşrləri" tərəfindən təsis edilib. 14 buraxılışı baş tutan FDO-da suallar inteqrativ formatda hazırlanır, bir sualın şərtində və cavab variantlarında 2–5 fənnin inteqrasiyası öz əksini tapır. TİO-da hər sualda inteqrasiya olunacaq fənlərdən biri mütləq türk dünyasının coğrafiyası, ədəbiyyatı, tarixi, mədəniyyətini və ortaq elmi əhatə edir.

## KEŞİKÇİLİK DİQQƏT TƏLƏB EDİR...



**Foto E.Şahvələdindir.**

## GÜRCÜSTANDA BU ŞƏXSLƏRƏ 2000 LARİ YARDIM VERİLƏCƏK

***Gürcüstan hökuməti faşizm üzərində Qələbənin 80 illiyi münasibətilə İkinci Dünya Müharibəsi iştirakçılarına və müharibədə həlak olanların ailə üzvlərinə birdəfəlik maddi yardım ayıracaq. Sözügedən sərəncam artıq Baş nazir İrakli Kobaxidze tərəfindən imzalanıb.*** Hökumət Administrasiyasının yaydığı məlumata görə, müharibə veteranlarına 2000 lari, həlak olanların ailə üzvlərinə isə 1000 lari ödəniləcək. Maddi yardım Veteranların İşləri üzrə Dövlət Xidmətinin elektron məlumat bazasında qeydiyyatda olan şəxslərə veriləcək. Yardımın ayrılması Gürcüstanın Əmək, Səhiyyə və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmət Agentliyi tərəfindən həyata keçiriləcək. İşğal olunmuş ərazilərdən olan məcburi köçkünlərə isə ölkə ərazisində əlavə dəstək göstəriləcək. Bununla yanaşı, Tbilisi meriyası da paytaxtda yaşayan İkinci Dünya Müharibəsi iştirakçıları və həlak olanların ailə üzvləri üçün pul yardımı ayıracaq.




### ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayə-nizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürur-la dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin ya-yım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya **E-mail:Gurcustan_1921@mail.ru** elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli - mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

**Müdiriyyət.**

**გაზეთის ანგარიშის ნომერი**
**შპს „გურჯისტანი" ს/კ 203863792**
**ანგარიშის № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**


Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.